# Azərbaycanın milli iradəsinin və dövlətçilik qüdrətinin Zəfəri





**Böyük xalqları ucaldan onun qazandığı Zəfərlərdir. Bu gün qüdrətli, müzəffər Azərbaycan xalqının övladları kimi hər birimiz fərəhlə, qürurla və əzmlə bildiririk ki, Mən Azərbaycanlıyam! Taleyüklü sınaqlardan üzüağ çıxmağı bacaran soydaşlarımız hər daşında, hər qarışında tarix yatan yurdumuzda sevinclə yaşayır, yaradırlar. 8 noyabr tarixi illər uzunu haqsızlığa məruz qalmış, supergüclərin çirkin oyunlarına şahidlik etmiş, təcavüzkarın işğalçılıq siyasətinə 30 il dözmüş bir xalqın Zəfəridir. Ordumuzun Ali Baş Komandanı, Azərbaycanın Lideri cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olunan bu Zəfər 100 illər boyu yaddaşlardan silinməyəcək.**

44 günlük Vətən müharibəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu əsl qəhrəmanlıq dastanı yazaraq adını tarixə qızıl hərflərlə yazdı. Bu Zəfər torpaqlarımızın otuz illik erməni işğalına son qoyaraq ərazi bütövlüyümüzü bərpa etdi. Eyni zamanda Azərbaycan xalqına böyük fəlakətlər yaşadan erməni şovinizmi və ekspansionizmi ağır zərbə aldı. Müharibə dövründə döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror aktları həyata keçirdi. Ancaq bu müharibə cinayətlərinin Azərbaycan xalqının mübarizə əzmini sarsıtmağa gücü çatmadı. Çünki xalqımız yalnız bir məqsədə - qələbəyə köklənmişdi və bu yoldan onu döndərmək qeyri-mümkün idi.

Prezident İlham Əliyevin 2024-cü il noyabrın 8-də Bakıda Zəfər parkının açılışında iştirakı, Azərbaycan xalqına və dünyaya verdiyi mesajlar möhtəşəm Zəfərimizin əzəmətinin növbəti təsdiqi oldu. Ölkə başçımızın səsləndirdiyi fikirlər dostlarımızı sevindirdi, düşmənlərimizə bir ox kimi tuşlandı. Regional lider kimi Azərbaycanın imperativlərini görməzdən gəlməyə çalışanlar, yeni reallıqları dərk etmək istəməyənlər cənab Prezidentin çıxışı ilə bir daha qətiyyətimizə, haqq yolundakı əzmimizə şahid oldular. Qlobal sferada çoxüzlü yanaşmalar fonunda regional xaosu dəstəkləyən dairələrin qərəzi bir daha ifşa olundu: "...Nəyi demək istəyirdilər Azərbaycan xalqına? Onu demək istəyirdilər ki, biz bu işğalla barışaq. Çünki onların planlarında məhz bu idi. Onların planlarında məsələni həll etmək yox, işğala son qoymaq yox, Azərbaycan torpaqlarını erməni işğalının altında əbədi saxlamaq idi".

Həmin qüvvələr, xüsusən də bəziləri Qərb paytaxtlarında öz mövqeyini qoruyub saxlamaq istəyən islamofob və azərbaycanofob dairələrdir. Bu qüvvələr öz maraqlarını təmin etmək üçün Ermənistana qarşılıqsız dəstək verir və onu yeni münaqişəyə sövq edirlər. Bölgədə sabitliyin bərqərar olmasına mane olan bu dairələr Ermənistana təkcə siyasi dəstək göstərmir, onu hərbi baxımdan da gücləndirir, bu ölkəni silahlandırırlar. Ermənistanın sürətlə silahlanması qlobal sabitliyə təhdid yaradır. Sözügedən qeyri-sabitlik siyasəti təkcə Ermənistan ilə Azərbaycan arasında deyil, bütün regionda gərginliyi artırır, sülhə qarşı ciddi təhlükə yaradır. Beynəlxalq ədalət, insan hüquqları kimi prinsipləri yüksək səslə müdafiə etdiklərini deyən həmin dairələr əməldə bu prinsipial dəyərləri bir kənara qoyur və açıq-aşkar erməni millətçiliyi və ekspansiya siyasətinə dəstək verirlər.

Ermənistanın sülh yolunda atdığı addımlar sadəcə simvolik jestlərdən ibarətdir. Rəsmi İrəvan sülh istədiyini söyləsə də, əməldə bunu sübut edəcək qətiyyətli addımlardan boyun qaçırır. Azərbaycanın tələb etdiyi kimi, Ermənistanın ərazi iddialarından əl çəkməsi və bunu konstitusiyada rəsmiləşdirməsi sülh sazişi üçün həlledici bir addım ola bilər. Lakin İrəvan bu sülhə gedən yolda qətiyyətsizlik göstərir. Əfsuslar olsun ki, bu cür davranışın arxasında sadəcə Ermənistanın öz qərarı deyil, Qərb dövlətlərinin təzyiqi də dayanır. Bəzi Qərb dairələri Ermənistanın daxili işlərinə müdaxilə edərək, onu sülhə aparan yolun əksinə yönəltməyə çalışır. Onların əsas məqsədi regionda geosiyasi maraqlarını qorumaq və bölgədə qeyri-sabitliyi dərinləşdirməkdir. Bu baxımdan, Qərbin Ermənistana güclü dəstək verməsi, onu hərbi cəhətdən silahlandırması, Cənubi Qafqazda sülh və əmin-amanlıq uğrunda mübarizəyə zərbə vurur. Bu dövlətlər Fransanın da iştirakı ilə bölgədə tarazlığı pozmağa çalışır, sülhə deyil, yeni münaqişələrə şərait yaradırlar.

Bu günün reallığı göstərir ki, Ermənistan Fransa və ABŞ kimi ölkələrin dəstəyindən güc alaraq özünü saxta sülhpərvər kimi təqdim etməyə çalışır. Ermənistanın baş naziri Nikol Paşinyan və xarici işlər naziri Ararat Mirzoyan sülhə dair bəyanatlar səsləndirərək böyük bir imitasiya yaradır. Azərbaycan sadəcə ədalətli şəkildə Ermənistanın əsassız ərazi iddialarından əl çəkməsini tələb edir. Amma rəsmi İrəvan konstitusiyasına dəyişiklik etmədən sülhsevərlik iddiasında olmaqla dünyanı aldatmağa cəhd göstərir. Burada Bayden administrasiyasının ermənipərəst mövqeyi açıq-aydın görünürdü. Demokratların hakimiyyəti dövründə qondarma erməni soyqırımı tanındı, Azərbaycana birbaşa yardımı qadağan edən 907-ci düzəliş yenidən qüvvəyə mindi və ABŞ-ın anti-Azərbaycan siyasəti pik həddə çatdı. Bayden administrasiyası yalnız Ermənistanı deyil, Fransa və Hindistanı belə Azərbaycana qarşı yönəldərək regionda ədalətə zərbə vurur. Bu gedişlər Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmasını çətinləşdirir. Məhz aqressoru daha da azğınlaşdıran məqamlardan biri də şübhəsiz 5 aprel görüşüdür. Brüsseldə ABŞ, Avropa İttifaqı və Ermənistan nümayəndələrinin görüşü Qərbin Ermənistanla bir növ gizli hərbi pakt qurması kimi qiymətləndirilir. Bu hadisədən sonra bölgədə gərginliyin artması Qərbin Cənubi Qafqazdakı destruktiv mövqeyini bir daha üzə çıxardı. Bölgədəki yeni reallıqları qəbul etmək istəməyən Qərb dövlətləri Ermənistanın arxasında dayanmaqda israrlıdırlar. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bəzi Qərb gücləri Ermənistanı "sülh göyərçini" kimi təqdim etmək istəyirlər.

Məhz bütün məkrli dairələrin arzularını bundan sonra da puç etmək regiona müdaxilələrin kökünü qurutmaq üçün qüdrətli Azərbaycan dövləti daim ayıq-sayıqdır. Zəfər Günü yüz illərin mücadiləsi, minlərlə şəhidimizin qanıyla yazılmış tarixi bir dastanın möhtəşəm səhifəsidir. Bu, Azərbaycan xalqının milli dövlət qurmaq uğrundakı əzminin və iradəsinin ən yüksək təntənəsidir. Şuşanın azadlığı isə yalnız torpaqlarımızın işğaldan qurtuluşunu deyil, eyni zamanda Azərbaycan ordusunun qəhrəmanlığıdır. Bu şəhərin azadlığı xalqımızın qüruru, Vətən müharibəsində əldə edilən böyük qələbənin tacıdır.

Bu gün əsrlər boyu müxtəlif güclərin təzyiqi altında qalan xalqımızın bütün çətinliklərə və maneələrə rəğmən ayaqda qalaraq, əzəli torpaqlarına sahib çıxdığı, milli kimliyini bərpa etdiyi gündür. Azərbaycanın Zəfər Günü xalqımızın müstəqil və güclü dövlət olaraq dünya arenasında layiqli yerini tutmasının, tarix qarşısında verdiyi imtahandan alnıaçıq çıxmasının rəmzidir. Qələbə ruhu daim qəlbimizdədir.

**Nurlan ABDALOV,**
**"Respublika".**